

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 2 (21.154)

*6 yanvar 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik


*Rəsmi xronika*



Yanvarın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Beynəlxalq Aeroportunda "Azərbaycan Hava Yolları" (AZAL) Qapalı Səhmdar Cəmiyyətinə məxsus yeni gətirilmiş "Boeing-787-8" Dreamliner sərnişin təyyarəsinə baxıblar.

Dövlətimizin başçısına yeni təyyarə barədə məlumat verildi.

Bu təyyarə ilə ilk mərhələdə Bakıdan Pekinə, Londona və Avropanın digər şəhərlərinə uçuşlar yerinə yetiriləcək. Bu ilin yay mövsümündən isə hava gəmilərinin Nyu-York və yeni açılacaq hava xətlərində istismarı gözlənilir.

Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında təhsilə göstərilən qayğı nəticəsində bütün pillələr üzrə təhsil müəssisələrinin fəaliyyəti gücləndirilmiş, ali təhsil müəssisələrində də tədris müasir tələblər səviyyəsində təşkil olunmuşdur.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil siyasəti üzrə təşəbbüskarlıq" istiqaməti əsasında ali təhsil müəssisələrinin fəaliyyəti təhlil olunmuş, bu müəssisələrin reytinq cədvəli müəyyənləşmiş və nəticədə, Naxçıvan Dövlət Universiteti reytinq cədvəlində birinci yeri tutmuş, Naxçıvan Müəllimlər İnstitutu isə ilk onluqda yer almışdır. Bununla əlaqədar "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsinin rəhbəri Natiq Əhmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova məktubla müraciət etmişdir. Həmin məktubu təqdim edirik:

Hörmətli Vasif müəllim!

Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatı ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı ilə 70-80-ci illərdə respublikamızdan kənarda keçmiş SSRİ-nin aparıcı ali məktəblərində təhsil almış mütəxəssislərin ictimai birliyidir.

Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatının (AKTAM) "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsi Azərbaycan Respublikası Təhsil nazirinin 11 oktyabr 2013-cü il tarixli, 842 nömrəli əmrinə əsasən təşkil etdiyi "İctimai təşəbbüslərin dəstəklənməsi üzrə layihə müsabiqəsi"nin qalibi olmuşdur. Müsabiqənin nəticəsi olaraq, "Təhsil siyasəti üzrə təşəbbüslər" istiqaməti üzrə Təhsil Nazirliyinə təqdim olunmuş 135 layihədən 13-ü, o cümlədən bizim layihəmiz həyata keçirilmək üçün dövlət sifarişi almışdır.

Layihədə beynəlxalq səviyyədə qəbul olunmuş metodikaya əsasən, respublikamızın ali məktəblərində tədrisin keyfiyyətini qiymətləndirmək məqsədilə çoxistiqamətli tədqiqatlar aparılmış və ölkə üzrə ali məktəblərin reytinq cədvəli hazırlanmışdır.

Tədqiqatın nəticəsi olaraq, "Azərbaycan Respublikasının ali məktəblərinin reytinqi – 2014" kitabı nəşr olunmuş və Təhsil Nazirliyinə, ali təhsil müəssisələrinə, ictimaiyyətə, yerli və beynəlxalq təşkilatlara təqdim olunmuşdur.

Bizə bildirmək xoşdur ki, Naxçıvan Dövlət Universiteti reytinq tədqiqatlarında ən yüksək nəticə göstərərək birinci yeri tutmuş, Naxçıvan Müəllimlər İnstitutu isə ilk onluqda yer almışdır.

Bu yüksək nəticəyə Naxçıvan universitetlərinin rəhbərliyinin, professor-müəllim heyətinin fədakar əməyi və şəxsən Sizin muxtar respublikada təhsilə göstərdiyiniz böyük qayğının sayəsində nail olunmuşdur.

Gələcək tədqiqatlarda Naxçıvan universitetlərinə Sizin rəhbərliyinizlə və qayğınızla daha böyük müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**
**"Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsinin rəhbəri,**
**AKTAM təşkilatının sədri Natiq ƏHMƏDOV**

## "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. "Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları"nı təsdiq etsin;

2.2. mürəkkəb-texniki obyektlərin, komplekslərin və bu qəbildən olan başqa tikinti obyektlərinin siyahısını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə razılaşdırmaqla təsdiq etsin;

2.3. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 yanvar 2015-ci il*

## Naxçıvan Muxtar Respublikasının Babək və Culfa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Culfa rayonunun inzibati ərazi bölgüsünə daxil olan Göynük kənd inzibati ərazi dairəsi tərkibindəki Göynük kəndi və Nəhəcir kənd inzibati ərazi dairəsi tərkibindəki Nəhəcir kəndi Babək rayonunun inzibati ərazi bölgüsünə daxil edilsin.

**Maddə 2.** Göynük və Nəhəcir kənd inzibati ərazi dairələri Culfa rayonunun tabeliyindən çıxarılaraq Babək rayonunun tabeliyinə verilsin.

**Maddə 3.** Culfa rayonunun inzibati ərazisindən dövlət mülkiyyətində olan 1000 ha torpaq sahəsi bu Qanuna əlavə edilmiş xəritələrə uyğun olaraq, Babək rayonunun inzibati ərazisinə birləşdirilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 28 noyabr 2014-cü il*

## "Naxçıvan Muxtar Respublikasının Babək və Culfa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 28 noyabr tarixli 1119-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Babək və Culfa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 28 noyabr tarixli 1119-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Naxçıvan Muxtar Respublikasının Babək və Culfa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların "Naxçıvan Muxtar Respublikasının Babək və Culfa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 dekabr 2014-cü il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 5 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar tikinti layihəsində nəzərdə tutulmuş işlərin, o cümlədən tamamlama və abadlıq işlərinin yerinə yetirilməsi nəticəsində obyektin inşası və ya təmiri, yenidən qurulması, yaxud bərpası (bundan sonra – tikinti-quraşdırma) işlərinin bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsi prosedurunu və mexanizmini müəyyən edir.

1.2. Tikintiyə dövlət nəzarətinin məqsədi tikinti-quraşdırma və söküntü işlərinin qanunvericiliyin tələblərinə uyğun aparılmasını, bu işlərin yerinə yetirilməsi prosesində yol verilmiş pozuntuların vaxtında aşkar edilməsini və aradan qaldırılmasını, tikinti obyektlərinin etibarlılığını (dayanıqlılığını və möhkəmliyini) təmin etməkdir.

1.3. Bu Qaydaların müddəaları, tikintisinə icazə tələb edilməyən obyektlər istisna olunmaqla, bütün tikinti obyektlərinə şamil olunur.

1.4. Tikinti fəaliyyətinin bütün subyektləri, mülkiyyət formasından asılı olmayaraq, tikintiyə dövlət nəzarətini həyata keçirən vəzifəli şəxslərin tikinti obyektlərinə (xüsusi rejimli obyektlərə – müvafiq qaydada razılıq alındıqdan sonra) maneəsiz daxil olmasını, dövlət nəzarətinin həyata keçirilməsi üçün onlara müvafiq şəraitin yaradılmasını, tikintiyə aid tələb olunan sənədlərin təqdim edilməsini və tikintidə aşkarlanmış pozuntuların qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə aradan qaldırılmasını təmin etməlidirlər.

1.5. Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən Nazirliyin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi (bundan sonra – İdarə) vasitəsilə həyata keçirilir.

1.6. İdarə tikinti obyektinin sökülməsi zamanı söküntü işlərinin texniki təhlükəsizlik, şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun aparılmasına nəzarəti həyata keçirir.

1.7. Bu Qaydaların tələbləri tikinti fəaliyyətinin bütün subyektləri üçün məcburidir.

### 2. Tikintiyə dövlət nəzarətinin təşkili

2.1. Mülkiyyət formasından və təyinatından asılı olmayaraq, tikintisinə icazə tələb olunan obyektin tikintisinin bütün mərhələlərində aparılan tikinti-quraşdırma işlərinə və barəsində məlumatlandırma icraatının tətbiq olunduğu obyektin tikintisinə İdarə tərəfindən dövlət nəzarəti həyata keçirilir.

2.2. Tikintiyə icazə verən müvafiq yerli icra hakimiyyəti orqanı icazə barədə qərarı və xüsusi nişanı sifarişçiyə təqdim etdikdən sonra 3 (üç) iş günü müddətində həmin obyektin tikintisinə dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək üçün bu barədə İdarəyə məlumat verməlidir.

2.3. Məlumatlandırma icraatı ilə bağlı tikinti niyyəti barədə müraciətin daxil olduğu vaxtdan 3 (üç) ay müddətində tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsinə irad olmadıqda və ya belə irad olduğu təqdirdə,

*Ardı 2-ci səhifədə*

həmin irad aradan qaldırıldığı hallarda, müvafiq yerli icra hakimiyyəti orqanı həmin müddətin bitdiyi vaxtdan 3 (üç) iş günü müddətində barəsində məlumatlandırma icraatının tətbiq olunduğu obyektin tikintisi haqqında İdarəyə məlumat verməlidir.

2.4. Tikintiyə dövlət nəzarəti (bundan sonra – dövlət nəzarəti) tikinti-quraşdırma işlərinə başlanılması barədə İdarəyə məlumat verildiyi tarixdən tikinti-quraşdırma işləri tam başa çatdığı və bu Qaydaların 2.21-ci bəndinə əsasən, istismara hazırlıq aktının (tikinti-quraşdırma işlərinə dair) tərtib olunduğu tarixə qədər olan müddətdə İdarə tərəfindən bu Qaydalara uyğun olaraq həyata keçirilir. Dövlət nəzarətinin həyata keçirilməsi prosesində hər bir tikinti obyektinə aid olan sənədlərin bir nüsxəsi İdarədə saxlanılır.

2.5. Barəsində məlumatlandırma icraatının tətbiq olunduğu mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən (Binaların ümumi hündürlüyü 0 (sıfır) səviyyəsindən sonuncu mərtəbənin örtüyünün altına qədər olan məsafə kimi qəbul edilir) və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan yaşayış evlərinin tikintisinə dövlət nəzarəti yalnız həmin tikinti obyektinin tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsinə uyğun tikilməsi istiqamətində həyata keçirilir.

2.6. Dövlət nəzarəti prosesində aşağıdakılar müəyyən edilməlidir:

2.6.1. tikinti obyektinin inşası zamanı tikinti ərazisinin mühafizəsi, torpaq-qazma işlərinin yerinə yetirilməsindən başlayaraq, obyektin özülünün, yeraltı və yerüstü hissələrinin konstruksiyalarının, mühəndis-kommunikasiya təminatı şəbəkələrinin (xarici və daxili xətlərin), mühəndis sistemləri və avadanlıqlarının quraşdırılması, tikinti sahəsinin abadlaşdırılması və infrastruktur obyektləri üzrə işlərin yerinə yetirilməsində tikinti layihəsinə və şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə əməl olunması;

2.6.2. tikinti obyektinin yenidən qurulması, bərpası və əsaslı təmiri zamanı obyektdə hazırlıq işlərinin aparılması, onun yükdaşıyan konstruksiya elementlərinin (özülünün, yeraltı və yerüstü hissələrinin konstruksiyalarının) gücləndirilməsi və (və ya) yenisi ilə əvəz edilməsi, obyektin (onun hissələrinin) parametrlərinin (əlavə tikililər daxil olmaqla) dəyişdirilməsi, eləcə də mühəndis-kommunikasiya və texnoloji avadanlıqların dəyişdirilməsi yolu ilə onların keyfiyyət göstəricilərinin yaxşılaşdırılması üzrə işlərin yerinə yetirilməsində tikinti layihəsinə və şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə əməl olunması.

2.7. Tikinti-quraşdırma işlərinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə və tikinti layihəsinə uyğunluğunun müəyyən edilməsi üçün dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs tərəfindən aşağıdakılar araşdırılır:

2.7.1. bu Qaydaların 2.6-cı bəndində nəzərdə tutulmuş işlərin yerinə yetirilməsinə dair şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə əməl olunması;

2.7.2. podratçı tərəfindən aparılan tikinti-quraşdırma işlərinin xüsusi razılığın (lisenziyanın) əlavəsində göstərilən işlərə uyğunluğu, tikintidə texniki, müəllif və daxili əməliyyat nəzarətlərinin həyata keçirilməsi, yerinə yetirilmiş işlərə dair ümumi və xüsusi iş jurnallarının aparılması, eləcə də sonradan üstü örtülən işlərin, məsul konstruksiyaların, mühəndis-kommunikasiya təminatı şəbəkələrinin müayinəsi və ya sınaq aktlarının tərtib edilməsinə əməl olunması;

2.7.3. tikintidə texniki, müəllif və daxili əməliyyat nəzarətinin həyata keçirilməsi zamanı aşkar edilmiş pozuntuların aradan qaldırılması və bununla bağlı görülmüş işlərin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə və tikinti layihəsinə uyğunluğu.

2.8. Dövlət nəzarəti zamanı obyektin tikintisinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə və tikinti layihəsinə uyğun aparılması, inşaat konstruksiyalarının (karkasların, qəliblərin və sair) yararlılığı, tikintinin təhlükəsizliyinin təmin olunması, habelə şəhərsalma və tikinti fəaliyyəti subyektlərinin öz vəzifələrini lazımi qaydada icra etmələri yoxlanılır. Dövlət nəzarətini həyata keçirən vəzifəli şəxsin tikinti məmulatından, habelə hazır tikinti hissələrindən sınaq nümunələri götürmək, yoxlamaq və ya yoxlatdırmaq hüququ vardır. Tikinti məmulatının və (və ya) tikinti hissələrinin sınaq nümunələrinin yoxlanılması ilə bağlı xərclər qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilir. Dövlət nəzarəti zamanı peşə sahələrinə aid işlərin müvafiq peşəkarlıq sertifikatına malik şəxslər tərəfindən yerinə yetirilməsi yoxlanılır.

2.9. Dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs tərəfindən tikintiyə dövlət nəzarəti həyata keçirilərkən tikinti məqsədləri üçün ayrılmamış dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsində hər hansı tikinti-quraşdırma işlərinin aparılması aşkar edildikdə həmin obyektin sökülməsi barədə İdarə tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş qaydada müvafiq qərar qəbul edilir.

2.10. Tikintiyə icazənin tələb olunmasına baxmayaraq, tikinti obyektinin belə icazə alınmadan tikildiyi, habelə barəsində məlumatlandırma icraatı tətbiq edilən tikinti obyektləri ilə bağlı qanunvericiliyin tələblərinə riayət edilmədən yaşayış evinin tikildiyi müəyyən edildikdə həmin tikinti obyektlərində tikinti-quraşdırma işlərinin dayandırılması barədə İdarə tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş qaydada qərar qəbul edilir.

2.11. Tikintisinə icazə verilmiş obyektlərə dövlət nəzarəti hər bir tikinti obyekti üçün İdarə tərəfindən “Tikintidə Dövlət Nəzarəti Jurnalı” (Əlavə) açılmaqla aparılır. “Tikintidə Dövlət Nəzarəti Jurnalı” bu Qaydaların 2.2-ci bəndində göstərilən məlumata və obyektin sifarişçisinin tikinti-quraşdırma işlərinə başlamazdan 10 (on) gün əvvəl İdarəyə təqdim etdiyi aşağıdakı sənədlərə əsasən açılır:

2.11.1. tikintiyə icazənin surəti;

2.11.2. sifarişçi ilə podratçı arasında bağlanılmış müqavilənin surəti (qanunvericiliyə uyğun olaraq, sifarişçi podratçının funksiyalarını tam öz üzərinə götürdüyü hallar istisna olmaqla);

2.11.3. podratçının və (və ya) qanunvericiliyə uyğun olaraq, sifarişçi podratçının funksiyalarını tam və ya qismən öz üzərinə götürdüyü hallarda isə podratçı kimi sifarişçinin xüsusi razılığının (lisenziyasının) surəti;

2.11.4. sifarişçi ilə layihəçi arasında müəllif nəzarətinin aparılması üçün bağlanılmış müqavilənin surəti (qanunvericiliyə uyğun olaraq, sifarişçi layihəçinin funksiyalarını tam öz üzərinə götürdüyü hallar istisna olmaqla);

2.11.5. müəllif nəzarətinin aparılması üçün məsul şəxslərin təyin edilməsi barədə əmrin surəti;

2.11.6. texniki nəzarətin aparılması üçün məsul şəxslərin təyin edilməsi barədə əmrin surəti;

2.11.7. iş icraçısının (sahə rəisinin) peşəkarlıq sertifikatının (diplomunun), müvafiq əmrin və əmək müqaviləsinin surəti;

2.11.8. daxili əməliyyat nəzarətinin aparılması üçün məsul şəxslərin təyin edilməsi barədə əmrin surəti;

2.11.9. tikintidə istifadə olunan materialların keyfiyyətini yoxlayacaq akkreditasiya olunmuş laboratoriyalar haqqında məlumat.

2.12. Tikintisinə icazə tələb olunan, sahəsi və həcmi kiçik (bir mərtəbəsinin sahəsi 150 kvadratmetrdən, tikintinin ümumi həcmi isə 1200 kubmetrdən artıq olmayan), aşırımlarının uzunluğu 6 metrdən böyük olmayan birmərtəbəli və ikimərtəbəli iaşə, ticarət, sosial, təsərrüfat təyinatlı obyektlərin, eləcə də məhəllədaxili yolların, kommunikasiya (elektrik, qaz, su, kanalizasiya və rabitə) xətlərinin tikintisi üçün “Tikintidə Dövlət Nəzarəti Jurnalı” açılmır.

2.13. “Tikintidə Dövlət Nəzarəti Jurnalı”nda tikinti ərazisinin mühafizəsi və torpaq-qazma işlərindən başlayaraq son abadlaşdırma işlərinədək obyekt tikintisinin ayrı-ayrı mərhələlərinin texnoloji proseslərə bölünməklə ardıcıllığı müəyyən edilir. Sifarişçi (podratçı) tərəfindən tikinti-quraşdırma işləri “Tikintidə Dövlət Nəzarəti Jurnalı”nda müəyyən edilmiş mərhələlərə uyğun olaraq həyata keçirilməlidir. İdarə tərəfindən bu ardıcıllığa uyğun olaraq, birinci mərhələnin icrası təsdiq olunduqdan sonra tikinti-quraşdırma işlərinə başlanıla bilər.

2.14. Tikinti obyektində tikintiyə aid sənədləşmənin yerinə yetirilməsinə və görülən işlərə dövlət nəzarəti fərdi qaydada, “Tikintidə Dövlət Nəzarəti Jurnalı”nda bu barədə müvafiq qeydlər aparılmaqla həyata keçirilir.

2.15. Tikintinin hər bir növbəti mərhələsi üzrə yerinə yetirilmiş inşaat işlərinin şəhərsalma və tikintiyə dair normativ sənədlərə və tikinti layihəsinə uyğunluğu barədə dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs obyektdə işin gedişatını ləngitməmək məqsədi ilə hər bir mərhələ üzrə işlər başa çatan zaman tikinti obyektinə çağırış almadan vaxtlı-vaxtında dövlət nəzarətini həyata keçirir, bu mərhələlər üzrə işlərin başa çatmasını nəzarətdə saxlayır, ona görə cavabdehlik daşıyır və “Tikintidə Dövlət Nəzarəti Jurnalı”nda müvafiq qeydlər aparır. Obyektdə növbəti mərhələ üzrə tikinti-quraşdırma işlərinin davam etdirilməsinə razılığın verilməsi İdarə tərəfindən həyata keçirilir.

2.16. Dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs obyektdə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi zamanı yol verilmiş hər hansı pozuntu və çatışmazlıqlar aşkar etdikdə “Tikintidə Dövlət Nəzarəti Jurnalı”nda müvafiq qeydlər aparmaqla həmin pozuntuların və çatışmazlıqların aradan qaldırılmasını sifarişçidən (podratçıdan) tələb edir.

2.17. Hər mərhələ üzrə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi zamanı yol verilmiş pozuntu və çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sifarişçi İdarəyə bu barədə yazılı məlumat verməlidir. Yükdaşıyan konstruksiyalarında aşkar olunmuş pozuntular gücləndirilmə, bərpa və digər üsullarla aradan qaldırıldıqda həmin işlər aktla təsdiq olunmalı və yuxarıda qeyd olunan yazılı məlumata əlavə edilməlidir.

2.18. Bu Qaydaların 2.17-ci bəndində nəzərdə tutulmuş məlumatın daxil olduğu tarixdən 3 (üç) iş günü müddətində dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs tərəfindən pozuntuların aradan qaldırılması ilə bağlı yerinə yetirilmiş işlərin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə və tikinti layihəsinə uyğunluğu müəyyən edilir. Bu tədbirlərin nəticəsində pozuntuların aradan qaldırıldığı müəyyən edildikdə dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs tərəfindən bu barədə “Tikintidə Dövlət Nəzarəti Jurnalı”nda müvafiq qeydlər aparılır və bundan sonra bu Qaydaların 2.15-ci bəndinə uyğun olaraq, obyektdə növbəti mərhələ üzrə tikinti-quraşdırma işləri davam etdirilə bilər.

2.19. Dövlət nəzarəti prosesində hər hansı obyektdə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi zamanı tikinti-quraşdırma işlərini dayandırmadan aradan qaldırılması mümkün olan pozuntular aşkar edildikdə dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs tərəfindən həmin pozuntular barədə “Tikintidə Dövlət Nəzarəti Jurnalı”nda müvafiq qeydlər aparılmaqla, onların təxirə salınmadan aradan qaldırılması sifarişçidən (podratçıdan) tələb olunur. Həmin pozuntular aradan qaldırılmadıqda dövlət nəzarətini həyata keçirən vəzifəli şəxsin tərtib etdiyi texniki baxış aktına əsasən, İdarə qanunvericiliklə nəzərdə tutulmuş qaydada icrası məcburi olan yazılı “Göstəriş” verir.

2.20. Tikinti obyektində tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi zamanı qanunvericilikdə göstərilən pozuntular aşkarlandıqda dövlət nəzarətini həyata keçirən vəzifəli şəxsin hər bir pozuntu ayrıca təsvir olunmaqla tərtib etdiyi müvafiq akt əsasında İdarə tərəfindən müvafiq tədbirin görülməsi üçün Nazirliyə müraciət edilir və Nazirlik qanunvericiliklə nəzərdə tutulmuş qaydada həmin obyektdə tikinti-quraşdırma işlərinin dayandırılması barədə müvafiq qərar qəbul edir. Həmin qərarın surəti icra üçün sifarişçiyə, tikinti ərazisinə nəzarət etmək üçün müvafiq yerli icra hakimiyyəti və yerli polis orqanlarına göndərilir.

2.21. Obyektdə tikinti-quraşdırma işləri başa çatdıqdan sonra həmin işlərin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə və tikinti layihəsinə uyğun aparılmasını və tikintiyə dövlət nəzarətinin həyata keçirilməsinin başa çatmasını əks etdirən yekun sənəd olaraq istismara hazırlıq aktı tərtib olunur. Həmin akt sifarişçinin, podratçının, layihəçinin və İdarənin səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır və tikinti obyektinin istismarına icazənin verilməsi barədə sifarişçinin müraciətinə əlavə olunaraq, müvafiq yerli icra hakimiyyəti orqanına təqdim edilir. “İstismara hazırlıq aktı”nın forması Nazirlik tərəfindən təsdiq edilir.

### 3. Dövlət nəzarətini həyata keçirən orqanın səlahiyyətləri

3.1. Dövlət nəzarətini həyata keçirən orqan öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı səlahiyyətlərə malikdir:

3.1.1. tikinti obyektinə və tikinti ərazisinə maneəsiz daxil olmaq;

3.1.2. obyektin xaricdən görünən hissəsində onun əsas göstəricilərini əks etdirən məlumat lövhəsinin və xüsusi nişanın olmasını yoxlamaq;

3.1.3. tikinti ilə bağlı zəruri məlumatları, tikinti sənədlərini (şəhadətnamələr, sertifikatlar, aktlar və sair) tələb etmək;

3.1.4. tikinti fəaliyyətinin subyektləri tərəfindən şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə, tikinti layihəsinə əməl edilməsinə nəzarət etmək, o cümlədən tikintidə aşkarlanmış pozuntuların qanunvericilikdə və bu Qaydalarda nəzərdə tutulmuş qaydada və müddətdə aradan qaldırılmasını tələb etmək;

3.1.5. tikintidə sifarişçi tərəfindən texniki nəzarətin, layihəçi tərəfindən müəllif nəzarətinin və podratçı tərəfindən daxili əməliyyat nəzarətinin aparılmasına nəzarət etmək;

3.1.6. tikinti obyektində şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinin pozulması müəyyən edildiyi hallarda həmin obyektdə qanunvericiliyə və bu Qaydalara uyğun olaraq tikinti-quraşdırma işlərinin dayandırılması və zəruri hallarda obyektin sökülməsi, habelə lisenziya fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi haqqında müvafiq qaydada məsələ qaldırmaq;

3.1.7. tikintidə istifadə olunan inşaat materiallarının, məmulatların və konstruksiyaların normativ sənədlərin tələblərinə uyğunluğunu təsdiq edən sertifikatların olmasına nəzarət etmək, habelə inşaat materiallarından, hazır tikinti hissələrindən sınaq nümunələri götürmək, yoxlamaq və ya yoxlatdırmaq;

3.1.8. qanunvericiliklə nəzərdə tutulmuş peşə sahələrinə aid işləri yerinə yetirən şəxslərin müvafiq peşəkarlıq sertifikatına malik olmasını yoxlamaq;

3.1.9. tikinti obyektində inzibati məsuliyyətə səbəb olan pozuntular aşkar edildikdə həmin pozuntulara yol vermiş şəxslər barəsində inzibati xəta haqqında protokol tərtib etmək və müvafiq qərarın çıxarılması üçün Nazirlik qarşısında məsələ qaldırmaq;

3.1.10. tikinti və ya tikinti materialları və məmulatı ilə bağlı təhlükə barədə ictimaiyyəti məlumatlandırmaq;

3.1.11. tikintidə baş verən qəzaların səbəblərini araşdırmaq.

## “Rəşadətli əməyə görə” nişanlarının təqdimetmə mərasimi keçirilib



Yanvarın 5-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Rəşadətli əməyə görə” nişanı ilə təltif haqqında” 30 dekabr 2014-cü il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında yanğın təhlükəsizliyi sahəsində səmərəli fəaliyyətlərinə görə təltif edilən yanğın təhlükəsizliyi işçilərinə “Rəşadətli əməyə görə” nişanının təqdimetmə mərasimi keçirilib.

Mərasimdə Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri, general-leytenant Şamı Abdullayev çıxış edərək muxtar respublikada yanğından mühafizə xidmətinin təşkilindən danışıb, bu sahəyə göstərilən diqqət və qayğıdan bəhs edib. Qeyd olunub ki, muxtar respublikamızda yanğın təhlükəsizliyi orqanları üçün hərtərəfli şərait yaradılıb, Dövlət Yanğın Təhlükəsizliyi şöbələri üçün yeni inzibati binalar tikilərək və ya əsaslı təmir olunaraq şəxsi heyətin istifadəsinə verilib. Bundan əlavə, maddi-texniki bazanın gücləndirilməsi, şəxsi heyətin rifahının yüksəldilməsi istiqamətində də mühüm addımlar atılıb, Dövlət Yanğın Təhlükəsizliyi əməkdaşlarının əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib.

Sonra Naxçıvan Muxtar Respublikasında yanğın təhlükəsizliyi sahəsində fəaliyyətlərinə görə təltif edilən yanğın təhlükəsizliyi işçilərinə “Rəşadətli əməyə görə” nişanları təqdim olunub.

**Xəbərlər şöbəsi**

# Görkəmli elm və dövlət xadimi



***Bəşər tarixində elə insanlar var ki, onlar özlərinin fitri istedadı, həyatı və milli-mənəvi dəyərlərə bağlılıqları ilə daim saflıq, paklıq zirvəsinə yüksəlirlər. Sağlığında müdriklik qazanmış Azərbaycanın tarixi şəxsiyyətləri sırasında Əziz Məmmədkərim oğlu Əliyevin müstəsna xidmətləri xüsusi vurğulanmalıdır.***

...1897-ci il yanvarın 1-də qədim Azərbaycan torpağı İrəvanda dünyaya göz açmışdı. Atası Məmmədkərim camaat arasında böyük hörmət-izzət sahibi olmuşdu. Anası Zəhra xanım məşhur İrəvan taciri İbrahim bəyin qızı idi.

Uşaqlıq və gənclik illərində həyatı çətinliklərlə keçən Əziz Əliyev bir çox sınaqlardan çıxmış, Birinci Dünya müharibəsinin daşnak-erməni təqiblərinin, sovet dövrü repressiyalarının əziyyətlərini çəkmiş, lakin hər zaman insanların gözündə ucada olmuş, nəsildən nəslə yaddaşlara da beləcə köçüb əbədiləşmişdir.

O, ilk təhsilini doğulduğu kənddə almış, 1908-ci ildən sonra isə Rusiyanın Çita şəhərindəki gimnaziyada oxumuşdur. 1914-1917-ci illərdə İrəvan kişi gimnaziyasında təhsil alan Əziz Əliyev buranı əla qiymətlərlə bitirdikdən sonra Rusiyanın Sankt-Peterburq şəhərindəki Hərbi Tibb Akademiyasına qəbul olunmuşdur. Ulu öndər Heydər Əliyev Əziz Əliyevin həyatının həmin dövrü barədə demişdir: ***"O lap əvvəldən qeyri-adi insan idi. Onun tərcümeyi-halına diqqət yetirin. İrəvanda rus gimnaziyasında təhsil almaq və oranı qızıl medalla bitirmək, gənc ikən kömək üçün milyonçu Hacı Zeynalabdin Tağıyevə müraciət etmək, ondan bu köməyi almaq və bütün dünyada məşhur olan Hərbi Tibb Akademiyasında ali tibb təhsili almaq üçün Peterburqa getmək – gənclik illərində bunu heç də hər kəs bacarmazdı".***

Təəssüf ki, erməni daşnaklarının törətdikləri iğtişaşlar belə bir gəncin ali tibb təhsilini başa vurmasına imkan vermədi. Ermənilərin rus bolşevikləri ilə birlikdə 1918-ci ildə antiazərbaycan siyasəti kütləvi qırğınlara, soyqırımına, məcburi köçkünlüyə, didərginliyə, qaçqınlığa, aclığa, səfalətə səbəb oldu. Bu soyqırımı siyasəti Azərbaycanın hər yerində olduğu kimi, İrəvanda da geniş miqyasda həyata keçirilirdi və Əziz Əliyevin də ailəsi ağır məşəqqətlərə məruz qalmışdı. 1918-ci ildə İrəvana gələn Əziz Əliyev burada dəhşətli mənzərə ilə üzləşmiş, erməni daşnaklarının amansız qəddarlıqlarına tab gətirməyib ailəsini çətinliklə Naxçıvanın Şərur rayonuna gətirmiş, bir müddət Şərurda qaldıqdan sonra Şahtaxtı kəndinə köçmüşdür.

1920-ci ilin may ayında İrəvanda məskən salmış daşnak qoşunları şimaldan gələn bolşevik havadarlarının birbaşa dəstəyi ilə silahlı hücuma keçərək Şərur rayonunu, o cümlədən Şahtaxtı kəndini yerlə-yeksan edərək amansız qırğınlar törətmişlər. Qanlı qırğından salamat çıxa bilən və didərgin düşən Şahtaxtı əhalisi, o cümlədən Əziz Əliyevin ailəsi Arazı keçib İranın Ərəblər kəndinə sığınmış, 1921-ci ildə yenidən Şahtaxtı kəndinə qayıtmışdır. Əziz Əliyev 1923-cü ilin may ayına qədər kənddə orta tibb işçisi, həkim köməkçisi kimi çalışmışdır.

1923-cü ilin mayında Əziz Əliyev Bakıya köçmüşdür. Bundan sonra onun həyatının yeni mərhələsi başlanmışdır. Bakıda ilk vaxtlar Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, həmin idarənin Ümumi şöbə müdirinin müavini, katibin müavini və nəhayət, respublika Xalq Komissarları Şurasının katibi vəzifələrini icra etmişdir. O, bu çətin və məsuliyyətli vəzifələrdə çalışmaqla yanaşı, 1923-cü ildən etibarən yarımçıq qalmış ali tibb təhsilini də indiki Bakı Dövlət Universitetinin Tibb fakültəsində böyük uğurla davam etdirmiş, 1927-ci ildə universiteti bitirərək Daxili xəstəliklər kafedrasında işləməyə başlamışdır. Əziz Əliyev həmin kafedrada əvvəl ordinator, sonra isə aspirant, assistent və dosent kimi fəaliyyət göstərmiş, 1929-1932-ci illərdə isə Azərbaycan Klinik İnstitutunun rektoru olmuşdur.

Azərbaycanda səhiyyə işinin təşkilinə xüsusi diqqət yetirən Əziz Əliyevin bu sahədəki əvəzsiz xidmətləri tarixə qızıl hərflərlə həkk olunmuşdur. O, Xalq Səhiyyə Komissarlığı Müalicə şöbəsinin müdiri, Bakı Səhiyyə Şöbəsinin müdiri, Xalq Səhiyyə Komissarlığında müavin, Xalq Səhiyyə komissarı və digər vəzifələrdə çalışarkən respublikanın bütün rayonlarını qarış-qarış gəzmiş, bu sahədə problemlərin aradan qaldırılması üçün əməli tədbirlər görmüşdür. Həm özünə, həm də başqalarına qarşı son dərəcə tələbkar olan Əziz Əliyev bütün həyatı boyu ölkəmizdə tibb elminin inkişafına, yüksəkixtisaslı kadrların hazırlanmasına çalışmışdır. Azərbaycan həkimlərinin ustadı olan görkəmli alimin həyatının Azərbaycan Tibb Universiteti ilə bağlı parlaq səhifələri respublikanın tibb ictimaiyyəti, səhiyyə işçiləri, professor-müəllim heyəti və tələbə kollektivi üçün nümunədir.

1930-cu il mayın 9-da Bakı Dövlət Universitetinin Tibb fakültəsinin nəzdində Azərbaycan Dövlət Tibb İnstitutu (ADTİ) yaradılır. 1932-ci ildə Əziz Əliyevə institutun direktoru vəzifəsi tapşırılır. Böyük alim 6 ilə yaxın bir müddətdə həm bu vəzifəni layiqincə yerinə yetirir, həm də Bakı şəhəri Səhiyyə Şöbəsinin müdiri kimi fəaliyyət göstərir.

Həmin illərdə respublikada yüksəkixtisaslı həkimlərin hazırlanmasına ciddi ehtiyac duyulması, onların hazırlığını təmin edə bilən kadr çatışmazlığı, Azərbaycan dilində tibbi ədəbiyyatın və dərs vəsaitlərinin azlığı, tədris bazalarının zəifliyi, kitab fondunun lazımi səviyyəyə çatdırılmaması və digər məsələlər həllini gözləyən problemlər idi. Bu problemlərin aradan qaldırılması üçün Əziz Əliyev rahatlıq bilmədən çalışmış, azərbaycanlı kadrları işə cəlb edərək onların fəaliyyət dairəsini genişləndirmiş, ana dilində dərsliklər, dərs vəsaitləri, monoqrafiya və tövsiyələrin yazılmasına nail olmuşdur. Məhz bu səylərin nəticəsi olaraq, 1932-1935-ci illər ərzində Əziz Əliyevin rəhbərliyi ilə Azərbaycan dilində 55 adda dərslik və dərs vəsaiti tərtib edilərək tibb təhsili alan tələbələrin istifadəsinə verilmişdir. Bu, o dövrün texniki imkanları müqabilində çox böyük göstərici idi. Bundan başqa, professor Əziz Əliyevin təşəbbüsü ilə 1933-cü ildə Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin çapına da başlanılmışdır. Hazırda bu qəzet "Təbib" adı ilə nəşr olunur.

Əziz Əliyev hansı ictimai, inzibati, təşkilati işdə çalışmağından asılı olmayaraq, elmi axtarışlarını bir an belə dayandırmamışdır. O, institutu bitirəndən iki il sonra – 1929-cu ildə namizədlik, 5 il sonra isə doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdir. Əziz Əliyevin doktorluq dissertasiyası Azərbaycanda SSRİ Elmlər Akademiyasının mükafatına layiq görülən ilk dəyərli elmi iş olmuşdur. Əziz Əliyev 1941-ci il mayın 13-də SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü, 1956-cı ildə isə professor vəzifələrinə seçilmişdir.

Görkəmli alim 87 elmi əsərin müəllifidir. Bu əsərlərin böyük bir hissəsi təbabətin ayrı-ayrı sahələrinə, bir qismi isə tarixi və siyasi problemlərə həsr olunmuşdur. Onun elmi fəaliyyəti çoxşaxəli idi. Təsadüfi deyil ki, akademik Mustafa bəy Topçubaşov Əziz Əliyevi Azərbaycan səhiyyəsinin inkişaf tarixinin bir mərhələsi adlandırmışdır. Bu mərhələ böyük və məsul bir dövrü əhatə edir. O, həmin dövrdür ki, səhiyyə sahəsində böyük və genişmiqyaslı işlər görülür, beləliklə, Azərbaycan səhiyyəsi dirçəlir, milli kadrların böyük dəstəsi hazırlanırdı.

Elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, görkəmli alimin ictimai fəaliyyəti də Vətənə, xalqa sədaqətlə xidmətdən ibarət olmuşdur. O, 1941-1942-ci illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə isə Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışaraq özünü bacarıqlı dövlət xadimi kimi göstərə bilmişdir. Əziz Əliyev 1949-1950-ci illərdə Moskvada ÜİK(b)P MK-nın inspektoru, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, həmçinin Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləmişdir. Əziz Əliyev I və II çağırış SSRİ Ali Sovetinin deputatı seçilmişdir. O həmçinin Azərbaycan SSR Ali Sovetinin I-III çağırış, Dağıstan MSSR Ali Sovetinin II çağırış deputatı olmuşdur.

Əziz Əliyev bütün həyatı boyu ciddiliyi və zəhmətkeşliyi, prinsipiallığı və səmimiliyi ilə fərqlənmişdir. O, buna görə böyük nailiyyətlər qazanmış, bütöv bir həkimlər və alimlər nəsli yetişdirmiş, respublikada qabaqcıl və nümunəvi səhiyyənin təşkili, tibb elminin yaradılması və inkişafının əsasını qoymuşdur.

Əziz Əliyev həm də böyük bir ailənin başçısı, gözəl və qayğıkeş ata idi. Onun böyüdüb boya-başa çatdırdığı övladların Azərbaycan elminə verdiyi töhfə, Azərbaycan xalqı qarşısında xidmətləri də, ilk növbədə, həm gendən, həm də atanın şəxsi nümunəsindən qaynaqlanırdı.

Bu ailənin övladı akademik Zərifə xanım Əliyeva həyatını bütünlüklə oftalmologiya elminin inkişafına həsr etmişdir. Əvvəl Bakıda, sonra isə Moskvada uğurla çalışan böyük alim 1981-ci ildə keçmiş SSRİ Elmlər Akademiyasının çox nüfuzlu mükafatı sayılan "Averbax" mükafatına layiq görülmüşdür.

1998-ci il may ayının 14-də görkəmli alim, ictimai xadim Əziz Əliyevin anadan olmasının 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur. Yubiley tədbirində çıxış edən ümummilli liderimiz Heydər Əliyev alimin şəxsiyyətini yüksək qiymətləndirərək demişdir: ***"Əziz Əliyev Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O lap əvvəldən qeyri-adi insan idi. O həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda onun həyatı heç də asan keçmirdi, manеələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü".***

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu elmin himayə olunması, xalqımızın dövlət və elm xadimlərinin elmi və nəzəri irslərinin yaşadılması ideyasının davamı olaraq, ölkə Prezidenti cənab İlham Əliyev 2006-cı il dekabr ayının 5-də "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyi Naxçıvan Muxtar Respublikasında da geniş qeyd olunmuşdur. Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov professor Əziz Əliyevin keçdiyi həyat yolunu nəsillərə nümunə olacaq fəaliyyət, onu milli tariximizə imzasını qoyan görkəmli dövlət xadimi kimi dəyərləndirərək demişdir: ***"Əziz Əliyev dərin biliyə, yüksək təşkilatçılıq qabiliyyətinə malik bir insan kimi nəinki səhiyyəmizin inkişafına böyük töhfələr vermiş, eyni zamanda dövlət idarəçiliyində kadrlarla işləməyin, kütləni səfərbər etməyin, rəhbər-xalq münasibətlərinin bu gün də etalon ola biləcək ictimai praktikasını yaratmış, Azərbaycan elminin yeni istiqamətlərini müəyyənləşdirmiş, bu sahələrin inkişafına nail olmuşdur. Əziz Əliyevin həyatını və fəaliyyətini əks etdirən tarixi sənədləri izlədikcə onun dərin təfəkkürünə, işgüzarlığına, ağır sınaqlardan mətanətlə çıxmasına heyran qalmamaq mümkün deyil. Bu böyük şəxsiyyətin bütün fəaliyyəti xalqa layiqli xidmət nümunəsi idi".***

Böyük alim, görkəmli dövlət xadimi Əziz Əliyevin xatirəsi muxtar respublikada əbədiləşdirilmiş, Naxçıvan şəhərindəki küçələrdən birinə və Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasına alimin adı verilmişdir.

Əziz Əliyev insanlara, ilk növbədə, özünə qarşı çox tələbkar olmuş, həmişə dəqiqlik və işgüzarlıq nümunəsi göstərmişdir. Onun fikrincə, işdə tələskənlik yox, icra intizamında süreklilik olmalıdır. O deyirdi ki, "təkcə təbabət üçün tələsmək çox azdır. Əgər bir ömür təbabət üçün, bir ömür mühəndislik üçün, bir ömür fəlsəfə üçün, bir ömür aqronomluq üçün tələssək, bunun axırı nə olar? Bizə bu qədər ömür verən kimdir? İnsana ömürlər verilmir, bir ömür verilir. Lakin onu elə yaşamaq, elə oxumaq, elə işləmək, elə qurmaq, elə yaratmaq lazımdır ki, səndən sonra nəsə qalsın. Nəsillərə, millətə, xalqa əbədi yadigar olsun".

***Bəli, hər bir insan həyatda özündən sonra nə isə bir yadigar, nişanə qoymalıdır. Yaxşı əsərlər yazmalı, sənətkar yetişdirməli, yaxşı övlad böyütməli, yol çəkməli, körpülər salmalı, qalalar ucaltmalıdır... Əziz Əliyev o xoşbəxt insanlardandır ki, bunların hamısını edərək Azərbaycan xalqının qəlbində əbədiyaşarlıq hüququ qazanıb.***

**"Şərq qapısı"**

# Məcburi dövlət sosial sığorta haqlarının poçt şöbələrindən ödənilməsinə başlanılıb

Mövcud sığorta-pensiya sisteminin əsasını sistemə ödənilən məcburi dövlət sosial sığorta haqları təmin edir. Məcburi dövlət sosial sığorta haqqı qanunla nəzərdə tutulmuş hallarda fiziki şəxslərin itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır. Sosial sığortanın bu formasının müntəzəm olaraq həyata keçirilməsinə dövlət təminat verir. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, hər hansı bir müəssisədə işçiyə verilən əməkhaqqı müqabilində 22 faiz, işçinin öz əməkhaqqından isə 3 faiz Dövlət Sosial Müdafiə Fondu orqanının hesabına pul vəsaiti köçürülməlidir. Kənd təsərrüfatına yararlı torpaqlardan istifadə edən fiziki şəxslər əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün torpaqların ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının 1-ci keyfiyyət qrupu üzrə 12 faizi, yəni 12,6 manat, 2-ci keyfiyyət qrupu üzrə 8 faizi, yəni 8,4 manat, 3-cü keyfiyyət qrupu üzrə 4 faizi, yəni 4,2 manat, 4-cü keyfiyyət qrupu üzrə 2 faizi, yəni 2,1 manat miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəməlidirlər. Ticarət və tikinti sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının Naxçıvan şəhərində 50 faizinin 80 faizi, yəni 42 manat, rayon mərkəzində 50 faizinin 60 faizi, yəni 31 manat, kənd yerlərində isə 50 faizi məbləğinin 50 faizi, yəni 26,25 manat miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəməlidirlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu məcburi dövlət sosial sığorta haqlarının vətəndaşlar tərəfindən ödənilmə müddətinin azaldılması və əlavə maliyyə vəsaitlərinin sərf edilməsinin qarşısını almaq məqsədilə müxtəlif tədbirlər həyata keçirir.

Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun ***www.dsmf.nakhchivan.az*** saytında onlayn rejimində sığortaedənlərə və sığortaolunanlara təqdim olunur.

Məcburi dövlət sosial sığorta haqlarının onlayn ödənilməsi xidmətindən istifadə etmək üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və torpaq mülkiyyətçiləri internet vasitəsilə ***www.dsmf.nakhchivan.az*** saytına daxil olmaqla elektron xidmətlər siyahısından müvafiq xidməti seçərək plastik kartlar (əməkhaqqı, pensiya kartları və sairə) vasitəsilə məcburi dövlət sosial sığorta haqlarını tam şəkildə ödəyə bilərlər. Məcburi dövlət sosial sığorta haqlarının onlayn ödənilməsi xidmətindən istifadə etməklə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və torpaq mülkiyyətçiləri vaxta və vəsaitlərə qənaət etmiş olurlar.

Digər ödəniş üsulu məcburi dövlət sosial sığorta haqlarının poçt şöbələrindən ödənilməsidir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları ilə poçt şöbələri arasında bağlanmış müqavilələrə əsasən, məcburi dövlət sosial sığorta haqlarının poçt şöbələrindən ödənilməsi təmin edilmişdir. Bununla da, kənd təsərrüfatına yararlı torpaqlardan istifadə edən və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər rayon mərkəzlərinə getmədən, əlavə vəsait sərf etmədən və vaxt itirmədən kəndlərdəki poçt şöbələrindən məcburi dövlət sosial sığorta haqlarını ödəyə bilərlər. Məcburi dövlət sosial sığorta haqlarının poçt şöbələrindən ödənilməsi vətəndaşların rahatlığını təmin edəcəkdir.

***Tayfun ZEYNALLI***
***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı***

Yeni nəşrlər

# "Nəsillərə örnək: *Azərbaycan qadını*"

***Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Sevinc Abbasovanın Əməkdar elm xadimi, akademik İsmayıl Hacıyevin elmi məsləhətçiliyi, tarix üzrə fəlsəfə doktoru, dosent Firdovsiyyə Əhmədovanın elmi redaktorluğu ilə 2014-cü ildə "Elm və təhsil" nəşriyyatında yüksək poliqrafik səviyyədə işıq üzü görmüş kitabı ən qədim dövrdən XIX əsrin sonu, XX əsrin əvvəllərinədək əsrlər boyu böyük tarixin səhifələrində adı qızıl hərflərlə həkk olunmuş görkəmli qadınlarımızın həyat və fəaliyyətlərinə həsr olunmuşdur.***




Bəri başdan qeyd edilməlidir ki, əsərin ilk səhifəsində və sonunda xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan qadını haqqında söylədiyi yüksək fikirlərin verilməsi kitabın sanbalını və kamilliyini xeyli artırmışdır.

Əsərdə bütün tarix ərzində Azərbaycan xalqının yüksək mənəviyyat, cəsurluq və təmizlik simvolu olmuş görkəmli qadın nümayəndələrinin şəxsiyyət cizgilərinə və fəaliyyətlərinə nəzər salınır. Bir çox tarixçilərin haqqında həvəslə danışdığı döyüşkən və qorxmaz amazonkaların yaşadığı coğrafiyanı və onlara dair məlumatları dərindən təhlil edən müəllif Azərbaycan ərazisində də bu əfsanələşmiş qadın tayfalarının yaşadığı qənaətinə gəlir. Kitabda haqqında söz açılan Araz çayından şimala doğru uzanan Massaget şahlığının qadın hökmdarı Tomrisin (e.ə. VII-VI əsrlər) və onunla, təxminən, eyni dövrdə yaşayan Turan hökmdarı Alp Ər Tonqanın (Əfrasiyabın) nəslindən olan hökmdar Məhinbanu Şəmiranın dövlət başçısı və böyük sərkərdə kimi fəaliyyətləri, əslində, amazonkalar haqqında yazılanlarla həm tarixi baxımından, həm də mahiyyətcə uyğun gəlir.

Orta əsrlər Azərbaycan tarixinin bütün tədqiqatçıları XII əsri xalqımızın tarix salnaməsində intibah dövrü kimi səciyyələndirirlər. Bu baxımdan məşhur rübailər ustadı Məhsəti Gəncəvinin, Eldənizlər dövlətinin (1136-1225) idarəçiliyində hökmdar anası, həyat yoldaşı və xeyriyyəçi kimi mühüm rol oynamış, dərin zəkaya malik Möminə xatın (Atabəy Şəmsəddin Eldənizin həyat yoldaşı, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın anası), Zahidə xatın (M.C.Pəhləvanın həyat yoldaşı, Eldənizlərin sonuncu hökmdarı Özbəyin anası), Mehrican xatının (Səlcuq sultanı III Toğrulun qızı, atabəy Özbəyin həyat yoldaşı) bu dövrdə yaşamaları təsadüf sayılmamalıdır. Cahan Pəhləvanın kiçik qızı Cəlaliyyənin anası Zahidə xatından sonra Eldənizlərin mərkəzi vilayətinə çevrilmiş Naxçıvanı yüksək səviyyədə idarə etməsi haqqında məlumatlar isə yalnız iftixar hissi doğurur. Bu qadınların, habelə Ağsunqurilər dövlətinin (1117-1228) sonuncu hökmdarı Sülafə xatının və Hülakülər dövlətinin (1258-1357) ən qarışıq zamanlarında taxta çıxmış Satıbəy xatının fəaliyyətləri əsərdə geniş təhlil edilir.

Ağqoyunlu (XV əsr) hökmdarı Uzun Həsənin anası, dövrünün görkəmli diplomatı Sara xatının dövlət idarəçiliyində mühüm rolu daim tədqiqatçıların böyük marağına səbəb olmuşdur. Belə ki, Uzun Həsən xarici siyasətdə ciddi problemə çevrilən bütün məsələlərin həllini, əslində isə bütün xarici siyasəti həm Teymuri və Osmanlı hökmdarları ilə münasibətlərdə, həm də avropalı tərəfdaşlarla danışıqlarda mahir diplomat kimi özünü təsdiqləmiş Sara xatına etibar etmişdi. Səfəvilər dövlətinin qurucusu Şah İsmayıl Xətainin ömür-gün yoldaşı Taclı Bəyim (Şahbəyim), Şah I Təhmasibin qızı Pərixan xanımın Səfəvilər dövlətinin tarixində oynadıqları rol XVI əsrdə Azərbaycanın dövlət idarəçiliyində və cəmiyyətdə qadının yüksək səviyyədə təmsilçilik simasına ən bariz nümunədir. Qubalı Fətəli xanın həyat yoldaşı, bir müddət Dərbənd xanı olmuş Tuti Bikə və bacısı, Bakı xanlığının idarəçiliyində müstəsna rol oynamış Xədicə Bikənin, qızları Pəricahan (Pərixan) xanımın və Xanbikə xanımın göstərdikləri şücaət, ağıllı qadın və dövlət xadimi obrazı isə XVIII əsr Azərbaycanının siyasi pərakəndəlik mühitində heyranlıq doğurmaya bilmir. Qarabağ xanı İbrahim Xəlil xanın yüksək təhsil görmüş və xan sarayında xüsusi mövqeləri olan qızları, İngiltərə kralı I Georq tərəfindən "Müqəddəs Georgi" ordeninə layiq görülmüş yeganə türk qadını Ağabəyim ağa Ağabacı, şairə, böyük xeyriyyəçi, maarif və mədəniyyətin hamisi Gövhər ağa əvvəlki əsrlərdə adını tariximizə yazdırmış Azərbaycan qadınlarının növbəti nəslinin layaqətli nümayəndələri olmuşlar.

XVIII-XIX əsrlərdə yaşayıb-yaratmış qadın şairələrimizdən 4500 beytlik "Divan"ın müəllifi, yüksək təhsilə malik naxçıvanlı Heyran xanımın, Naxçıvan xanı Ehsan xanın qızı Qonçabəyimin, qarabağlı Xan qızı, lirik qəzəllərin böyük ustadı, xeyriyyəçi, maarifçi Xurşudbanu Natəvanın fəaliyyətləri Azərbaycan ədəbiyyatı tarixinin mühüm səhifələrini təşkil edir.

XX əsrin əvvəllərində Azərbaycan milyonçularının xeyriyyə fəaliyyəti ilə məşğul olan nümayəndələrindən biri də Təzə-Pir məscidini bərpa etdirmiş, kasıb təbəqəyə qarşı əliaçıqlığı ilə məşhurlaşmış Nabat xanım Aşurbəyova-Rzayeva olmuşdur. Azərbaycanın ilk maarifçi qadınlarından olan, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin ömür-gün yoldaşı, Bakıda ilk qız məktəbinin yaradıcısı və 1901-1905-ci illərdə müdiri işləmiş Hənifə xanım Məlikova-Zərdabi, kitabın müəllifinin də haqlı olaraq qeyd etdiyi kimi, Azərbaycan ziyalı qadınlarının mənəvi anası sayılır. Onun daha bir həmmüasiri, 1909-cu ildə oğlanlarla qızların birgə oxuduğu ilk məktəbin banisi, beynəlxalq konfransda məruzə edən ilk müsəlman qadın və böyük şair Mirzə Ələkbər Sabirin müalicə xərclərini öz üzərinə götürmüş tarixçi Əhməd bəy Cavanşirin qızı, Cəlil Məmmədquluzadənin həyat yoldaşı, maarifçi və xeyriyyəçi Həmidə xanım Cavanşir-Məmmədquluzadə olmuşdur. İsa Sultan Şahtaxtinskinin həyat yoldaşı Sofiya xanım Həmidə xanımla birgə 1905-ci ildə Tiflisdə Qafqaz Müsəlman Qadınlarının Xeyriyyə Cəmiyyətini yaratmışdı. Cəmiyyətin məqsədi yoxsullara yardım etmək, qız məktəbləri açmaq, Qafqazda qadınlar arasında maarifçiliyi və mədəniyyəti təbliğ etmək idi. 1922-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmiş ilk 4 azərbaycanlı qız – Ceyran Sultanova, Sona Axundova, Kəbirə Bağırbəyova və Ədilə Şahtaxtinskaya idi. Sonuncu İsa Sultanla Sofiya xanımın kiçik qızları idi. Daha bir naxçıvanlı qadın, Şərur rayonunun Kərimbəyli kəndindən olan Əfruz Kərimova isə Abbasqulu bəy Şadlinskinin başçılığı altında "Qırmızı tabor"da erməni təcavüzünə qarşı rəşadətlə mübarizə aparmış qəhrəman qadınlarımızdandır.

Müəllif, ümumiyyətlə, öz əsərinə 30-dan artıq Azərbaycan qadını haqqında məlumatları daxil etmişdir. Kitabın dəyərini artıran mühüm amillər bir sıra yeni məlumatların ictimai dövriyyəyə daxil edilməsi və tədqiqatçının yeri gəldikcə tarixi hadisələrə də müraciət etməsidir. Bu müraciət tarixin bütün dövrlərindən səs-sədası gələn Azərbaycan qadınının ən mürəkkəb tarixi şəraitdə böyük qəhrəmanlığı, xeyriyyəçilik və maarifçilik nümunəsi olan obrazının ətraflı təsviri üçün son dərəcə faydalıdır. Qadınlarımız haqqında oxunaqlı bir əsər ərsəyə gətirmiş Sevinc Abbasovanın "Nəsillərə örnək: Azərbaycan qadını (Qədim dövr – orta əsrlər – XIX əsr)" kitabının geniş oxucu auditoriyası tərəfindən maraqla qarşılanacağına şübhəmiz yoxdur.

**Elman CƏFƏRLİ**
***tarix üzrə fəlsəfə doktoru***

# Naxçıvandakı arxeoloji abidələrin Qədim Şərq paralelləri

***Azərbaycan arxeologiyasında ən aktual və maraqlı mövzulardan biri Naxçıvandakı arxeoloji abidələrin qədim Şərq mədəniyyəti ilə paralelliyi məsələsidir. Qeyd olunan mövzunun tədqiq olunmasında abidələrdən əldə olunmuş arxeoloji materialların müqayisəli şəkildə öyrənilməsi mühüm elmi əhəmiyyət daşıyır.***

Naxçıvandakı arxeoloji abidələrdən əldə olunmuş qədim maddi-mədəniyyət nümunələrimizi müqayisəli şəkildə öyrənərkən Neolit dövründən başlayaraq bütün tarixi dövrlərdə mədəniyyətlərarası paralelliyin olduğunu müşahidə etdik. Fikrimizi əsaslandırmaq üçün arxeoloji mənbələrə nəzər salsaq, görərik ki, I Kültəpə abidəsindən tapılmış bir qrup boyalı qablar, firuzə, nikel qarışığı olan biz və digər maddi-mədəniyyət nümunələri Ubeyd mədəniyyəti üçün xarakterik xüsusiyyətlərə malikdir. Qablardan ikisi çölməktipli bütöv qab, on üç ədəd keramika isə gil qabların hissələrindən ibarətdir. Çölməklərin hər ikisi özünəməxsus xarakterik xüsusiyyəti ilə fərqlənir. Onlardan birinin boğazı qırmızı rənglə örtülmüş, üzəri qəhvəyi rənglə üfüqi paralel xətlərin arasında çəkilmiş şaquli xətlərlə naxışlanmışdır. Digər çölmək sarı rəngdə bişirilərək üzərinə qara rəng çəkilmişdir. Bu tip çölməklər Van gölü ətrafındakı Tilkitəpə, Urmiya hövzəsindəki Dalmatəpə, Pijdəlitəpə abidələrindən də tapılmışdır. I Kültəpə abidəsinin Eneolit dövrü təbəqəsindən aşkar olunmuş sağ, yaxud sol böyrü üstə dəfnetmə adəti Ubeyd mədəniyyəti dövründə şumerlər üçün xarakterik olmuşdur. Ön Asiyadakı Təpə Sialk, Təpə Cəmşid, Təpə Giyan, İkiçayarasındakı Təpə Gaur abidələrində bu tip qəbirlər aşkar edilmişdir. Arxeoloji mənbələrə nəzər salsaq, görərik ki, Naxçıvanın Kür-Araz mədəniyyəti arxeoloji abidələrində də Yaxın Şərq mədəniyyəti ilə paralellik təşkil edən elementlər müşahidə etmək mümkündür. Maxta, II Kültəpə abidələrinin Erkən Tunc dövrü təbəqəsindən aşkar olunmuş hündür (bitişik) dabanlı vazaların, silindrik formalı çıxıntısı olan kasaların, spiral ornamentli qabların bənzərləri Yaxın Şərq mədəniyyətində vardır. Spiralşəkilli ornamentlərlə naxışlanmış qablar Ön Asiya, Şərqi Anadolu, Urmiya hövzəsindəki abidələrdən xeyli miqdarda tapılmışdır. Naxçıvanın Orta, Son Tunc və Erkən Dəmir dövrləri abidələrindən tapılmış arxeoloji materiallarda da Yaxın Şərq mədəniyyəti ilə yaxın paralellik, bənzər elementlər çoxdur. Culfa nekropolundan əldə olunmuş və üzəri bir-birinin içərisində yerləşdirilən bucaqlarla bəzədilmiş keramika məmulatının bənzəri İkiçayarasının Tel Mağzəliyə abidəsində tapılmışdır. II Kültəpə yaşayış yerinin Narınqalası tikinti planına, memarlıq xüsusiyyətlərinə və möhtəşəmliyinə görə Yaxın Şərqin qədim şəhərlərinin qalalarını xatırladır. I Kültəpə abidəsindəki dairəvi planlı binalar tikinti xüsusiyyətlərinə görə Təbriz yaxınlığındakı Yanıqtəpə, Urmiyadakı Göytəpə yaşayış yeri ilə, Şimali Mesapotamiyanın Arpaçi və Govurtəpə abidələri ilə oxşarlıq təşkil edir.

Naxçıvandakı arxeoloji abidələrin Yaxın Şərq mədəniyyəti ilə paralelliyini göstərən maddi-mədəniyyət nümunələri içərisində şüşədən, balıqqulaqlarından hazırlanmış Tunc və Erkən Dəmir dövrlərinə aid muncuqlar da özünəməxsus yer tutur. Aparılan tədqiqatlar onu göstərir ki, şüşə istehsalında istifadə olunan kömür ağacları (palıd, vələs və sair), soda yataqları və şüşə qumu Xəzər sahilində, Xırdalanda, Qarabağda və Azərbaycanın başqa yerlərində kifayət qədərdir. Daşkəsənin kobalt yataqları təkcə Azərbaycanda deyil, həm də bütün Yaxın Şərqdə məşhurdur.

Naxçıvandakı arxeoloji abidələrin Yaxın Şərq mədəniyyəti ilə paralelliyi məsələsinin öyrənilməsində əldə olunan silindrik möhürlər də mühüm əhəmiyyət kəsb edir. Onların bir qismi həndəsi ornamentlərlə bəzədilmişdir. Bəzi möhürlərin üzəri müxtəlif işarələrlə naxışlanmışdır. Şahtaxtı nekropolundan tapılmış və e.ə. II minilliyin ikinci yarısına aid möhür ikonoqrafiyası baxımından Suriya-Fələstin və Kərkük möhürləri ilə bənzərlik təşkil edir. Mərdangöl, Muncuqlutəpə, Dolmatəpə nekropollarından əldə olunmuş və e.ə. II minilliyin ikinci yarısına aid möhürlər Mittaniya-tipli möhürlər sırasına daxildir.

Gəmiqayadakı qayaüstü təsvirlərdə Qədim Şərq mədəniyyəti ilə paralellik təşkil edən elementlər çoxdur. Bu tip qayaüstü təsvirlərdə keçi, öküz və sair rəsmlər çəkilərək qədim insanların dini-ideoloji görüşləri, həyat tərzləri ilə bağlı maraqlı süjetlər əks olunmuşdur. Abidədəki bu cür qayaüstü təsvirlərdən bəziləri digər Anadolu, İran, Ön Asiya, Sibir petroqlifləri kimi sadə və mürəkkəb kompozisiyalıdırlar. Sadə kompozisiyalı rəsmlərdə keçi tək və ya sürü şəklində heç bir əlavə təsvir olmadan verilmişdir. Mürəkkəb kompozisiyalı rəsmlərdə keçi müxtəlif işarələrlə, svastika, həyat ağacı, insan və digər varlıqlarla birlikdə təsvir edilmişdir. Gəmiqayada qeydə alınmış quş təsvirlərindən bəzilərinin bənzərlərinə Hələf mədəniyyətində rast gəlmək mümkündür. Abidədə qeydə alınmış yırtıcı heyvanların dırnaqlıları parçalaması ilə bağlı qayaüstü təsvirlərin bir çoxunda da Qədim Şərq mədəniyyəti ilə paralellik təşkil edən elementlər müşahidə edilmişdir. Belə maraqlı qayaüstü təsvirlərdən birində "Qurd ağzı bağlanılması" ayininin əks olunduğu, bu ayinin türk xalqları üçün xarakterik olduğu tədqiqatçılar tərəfindən müəyyən olunmuşdur.

*Sonda demək istərdik ki, Naxçıvandakı arxeoloji abidələrin hər biri Qədim Şərq mədəniyyəti ilə yaxın paralellik təşkil edir. Bu, onu göstərir ki, Qədim Şərq ölkələrindən olan Misir, İkiçayarası və digər ölkələr kimi, Naxçıvan da qədim sivilizasiya mərkəzlərindən biri olmuşdur.*

**Toğrul XƏLİLOV**
***tarix üzrə fəlsəfə doktoru***

## *Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi*
*gömrük orqanlarında kinoloji xidmətin təşkili ilə bağlı müsabiqə elan edir*

Müsabiqə komitənin Kinoloji xidmət şöbəsində mövcud olan mülki ştat vahidlərinin tutulması üçün keçirilir.

Müsabiqəyə xidməti itlərlə işləmək həvəsi, bacarığı və bu sahədə təcrübəsi olan şəxslər dəvət olunur. Qeyd edək ki, kinoloqların tabeçiliyində olan xidməti itlərdən narkotik vasitələrin, odlu silahların və dövriyyəsi qanunla qadağan olunmuş digər malların aşkarlanaraq gömrük nəzarətinə cəlb olunması məqsədilə istifadə edilir.

Muxtar respublika gömrük orqanlarında kinoloji xidmətin təşkili ilə bağlı müsabiqə sınaq və müsahibə mərhələlərindən ibarət olacaq. Müsabiqədə hər bir namizədin bu sahədəki təcrübəsi, ümumi dünyagörüşü, gömrük orqanlarında xidmət etməyə yararlı və layiqli olması yoxlanılacaq.

Müsabiqəyə yaşı 40-a qədər olan şəxslər buraxılacaq.

*Maraqlananlar Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinə müraciət edə bilərlər.*

***Əlaqə telefonları:***
***(036) 544-49-60; (036) 544-49-72***

## *İşaxtaran vətəndaşların nəzərinə!*

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində "elektrik montyoru" peşəsi üzrə kurs təşkil edir.

Tədrisin müddəti 2 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2015-ci il yanvar ayının 10-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər.

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış.*

***Əlaqə telefonu: 545-32-33***

### *İtmişdir*

Naxçıvan şəhəri, Afiyəddin Cəlilov küçəsi, bina 1, mənzil 1-də yaşamış Məmmədov Səttar Həsən oğlunun adına olan evin 5234 inventar nömrəli texniki pasportu və 02/15 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Quliyev Elnur Yusif oğlunun adına Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Quliyev Ələkbər Yusif oğlunun adına olan JN-1999A inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 3